D) Disembrioplastik Neyroepitelial tumor
E) Ependimoma

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh73

**819) Paraqanqlioma mərkəzi sinir sistemində ən çox harada lokalizasiya olunur?**

A) Onurğa beyni servikal səviyyədə ekstradural
B) Onurğa beyni torokal səviyyədə intradural
C) Onurğa beyni servikal səviyyədə intradural
D) Onurğa beyni at quyruğunda
E) Onurğa beyni torakal səviyyədə ekstradural

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh74

**820) Aşağıdakı ifadələrdən hansı kraniofaringioma üçün səhvdir?**

A) Uşaqlıq devrində müşahidə edilir və nisbəti 5% dir
B) Ademantinomatoz tip kraniofaringiomaların residiv vermə ehtimalı yüksəkdir.
C) Nadir müşahidə edilən MSS tumoru olub sadəcə 2% nisbətindədir.
D) Papilyar kraniofaringiomalar daha çox solid kütlə şəklində ortaya çıxır.
E) Papillyar kraniofaringiomalar daha çox uşaqlarda müşahidə edilir və proqnozu pisdir.

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh74

**821) Radiasiyon nekroz üçün səhv olanı göstərin:**

A) Şüa dozası ilə əlaqəli deyil
B) Əsasən radioterapiyadan sonrakı 6-24 ay içində müşahidə edilir
C) Ağ maddədəki damar divarlarında hialinizasiya və qalınlaşma törədir.

www.snsk.az ödənişsiz istifadə üçün

D) Müalicəsində steroid istifadəsi kifayət edir,bəzən nekrotik ocaq cərrahi üsulla çıxardıla bilər.
E) Boz-ağ maddə birləşməsində fibrin eksudat yaradır

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh75

**822) Arxa çuxur tumorlarında hansı simptom az müşahidə edilir?**

A) Görmənin pozulması
B) Ürəkbulanma və qusma
C) Müvazinatın pozulması
D) Başağrısı
E) Epileptik tutma

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh106

**823) Bir ildir sağ gözündə önə doğru qabarma şikayəti ilə gələn 5 yaşındakı uşaqda,MRT-də görmə sinirində qlioma aşkar edilir.Göz müayinəsinə əlavə olaraq aşağıdakı sistemlərin hansının müayinəsi,diaqnozun qoyulmasında və xəstənin müalicəsində yararlı olar?**

A) Qulaq və vəstibulyar aparat
B) Sümük iliyi
C) Dəri
D) Qaraciyər
E) Ürək-damar

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh10

**824) Amiotrofik lateral skleroz (ALS)diaqnozunda ən əhəmiyyətli müayinə üsulları hansılardır?**
**1. Kliniki müayinə**
**2. Lumbal punksiya**
**3. Elektrofizioloji müayinələr**
**4. Kranial MRT**
**5. Sinir biopsiyası**

A) 1,3
B) 3,4
C) 3,5
D) 1,2,5
E) 1,4

Ədəbiyyat: Ədəbiyyat:M.İbrahim Ziyal Nöroşirurji soruları,Ankara 2007.sh113

www.snsk.az ödənişsiz istifadə üçün

**825) Törədicinin beyinə daxil olma yollarından asılı olaraq əsasən abseslər hansı qruplara bölünür?**

A) Travmatik, metastatik
B) Metastatik, rinogen
C) Travmatik, rinogen
D) Rinogen, hematogen
E) Otogen, rinogen

Ədəbiyyat: R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh173

**826) Exinokokların morfoloji və bioloji xüsusiyyətlərinə görə hansı formaları mövcuddur?**

A) Bitişməli, kistalı, bitişməli-kistalı
B) Bitişməli, kistalı
C) Hidatidoz, alveolyar
D) Kistalı, kistasız
E) Kapsulalı, yayılmış

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh180

**827) Hormetoniyaya (əzələ tonusunun kəskin artması) səbəb əsasən nədir?**

A) Beyinciyə qansızma
B) Beyindaxili hematoma
C) Subdural hematoma
D) Epidural hematoma
E) Mədəcikdaxili hematoma

Ədəbiyyat: R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh158

**828) Daxili yuxu arteriyası mənfəzinin tam tutulması zamanı aşağıdakı əlamətlərdən hansı müşahidə olunmur?**

A) Əks tərəfdə homonim hemianopsiya
B) Total afaziya
C) Tetraplegiya
D) Hemihipesteziya
E) Hemiplegiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh162

**829) Meninqoradikulosele zamanı yırtıq kisəsində sadalananlardan hansı müşahidə olunur?**

www.snsk.az ödənissiz istifadə üçün

A) Onurğa beyni qişaları
B) Qişalar və kökcüklər
C) Onurğa beyni və kökcüklər
D) Onurğa beyni
E) Onurğa beyni, kökcüklər və qişalar

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh197

**830) Braxisefaliyaya sadalananlardan hansı səbəbdir?**

A) Koronar tikişlərin vaxtından əvvəl sümükləşməsi
B) Sagital tikişlərin sümükləşməsi
C) Sagital və alın tikişlərin sümükləşməsi
D) Alın tikişlərinin sümükləşməsi
E) Əmgəyin tez bağlanması

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh206

**831) Üçlü sinir nevralgiyasının hansı formaları var?**

A) Essensial, simptomatik
B) Yoluxucu, travmatik
C) Yoluxucu, essensial
D) Aterosklerotik, essensial
E) Aterosklerotik, simptomatik

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh222

**832) Ağrı aparıcı yollarda aparılan əməliyyatlar hansılardır?**
**1. Xordotomiya**
**2. Komissurotomiya**
**3. Talamotomiya**
**4. Simpatektomiya**

A) 1, 2, 3
B) 2, 3, 4
C) Yalnız 2
D) Yalnız 3
E) 1, 2, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A . Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh228

**833) Aşağıda sadalanan hissələrdən hansı arterial anevrizmanın tərkibinə aid deyil?**

A) baş

www.smsk.az ödənişsiz istifadə üçün

B) cisim
C) boyun
D) dib
E) ayaqcıq

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh164

**834) Aşağıdakılardan hansı palliativ əməliyyatdır?**

A) Frez dəliklərindən xroniki subdural hematomanın çıxarılması
B) Fəqərəarası disk yırtığının çıxarılması
C) Kraniotomiya, epidural hematomanın çıxarılması
D) İntramedulyar şiş zamanı dekompressiv laminoektomiya
E) Kraniotomiya, meningiomanın çıxarılması

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh19

**835) Serebral angioqrafiyanın hansı forması icra edilərkən, yuxu arteriyasının kontrastlaşması ilə rentgeneloji müayinə aparılır?**

A) Karotid angioqrafiya
B) Pnevmoensefaloqrafiya
C) Ventrikuloqrafiya
D) Vertebral angioqrafiya
E) Mieloqrafiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh31

**836) Fəqərə sütunu - onurğa beyni patologiyaları zamanı, hansı müayinə üsulunun aparılması daha məqsədəuyğundur?**

A) Neyrosonoqrafiya
B) Spondiloqrafiya
C) Mieloqrafiya
D) KT
E) MRT

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004

**837) Arterial anevrizma səbəbi ilə icra edilən intrakranial əməliyyat zamanı anevrizma boynu nə ilə bağlanır?**

A) 10 / 0 neylon sapla
B) Koylla
C) Balon kateterlə
D) 4 / 0 vikril sapla

www.snsk.az ödənişsiz istifadə üçün

E) Klipslə

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. 167

**838) Xarici ənsə qabarından 3 sm yuxarı və orta xətdən 3 sm yana kəsişmə nöqtəsi necə adlanır?**

A) Burdenko nöqtəsi
B) Foramen maqnum
C) Dendi nöqtəsi
D) Təpə qabarı
E) Koxer nöqtəsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh42

**839) Baş beyin şişləri yerləşməsinə görə hansı şişlərə aid edilir?**

A) İntramedulyar, ekstramedulyar
B) Supratentorial, subtentorial
C) İntraserebral, ekstraserebral
D) Neyroektodermal, mezenximal
E) Subdural, epidural

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh53

**840) Neyroektodermal şişlərə aşağıdakılardan hansı aid deyil?**
**1. Astrositoma**
**2. Qlioblastoma**
**3. Meningioma**
**4. Ependimoma**
**5. Angioretikuloma**

A) 1, 2, 3
B) 1, 3, 4
C) 2, 4, 5
D) 1, 2, 4
E) 3, 4, 5

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**841) Xəstədə mərkəzi tetraparez, diafraqmanın parezi, tənəffüsün pozulması, bulbar əlamətlər müşahidə olunur. Bu zaman onurğanın hansı nahiyəsində patoloji proses olmasından şübhə edilməlidir?**

A) Th2 - Th12
B) L1 - l2

www.snsk.az ödənişsiz istifadə üçün

C) C1 - C4
D) C5 - Th1
E) L3 - L5

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh99

**842) Kəllə sümüklərinin şişləri, iltihabi prosesləri və travamatik zədələnmələri zamanı hansı neyrocərrahi üsul istifadə edilir?**

A) Laminoektomiya
B) Rezeksion trepanasiya
C) Kranioplastika
D) SPT
E) Frez dəliyinin qoyulması

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh11

**843) Arterial anevrizma səbəbiylə icra edilən endovaskulyar əməliyyatlar zamanı hansı arteriyalar punksiya edilərək, anevrizmaya doğru kateter yeridilir?**

A) Yuxu və bud arteriyaları
B) Onurğa arteriyası
C) Orta beyin arteriyası
D) Ön birləşdirici arteriya
E) Əsas arteriya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh168

**844) Xəstəliyin klinik gedişatına təsir etməyən, onun gələcək ağırlaşmalarının qarşısını alan əməliyyatlar neyrocərrahi əməliyyatların hansı formasına aiddir?**

A) Radikal əməliyyatlar
B) Palliativ əməliyyatlar
C) Rekonstruktiv əməliyyatlar
D) Preventiv əməliyyatlar
E) Stereotaktik əməliyyatlar

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh20

**845) Görmə sinirinin görmə çarpazına qədər zədələnməsi zamanı nə baş verir?**

A) İkitərəfli korluq
B) Bitemporal hemianopsiya
C) Binazal hemianopsiya
D) Həmin gözdə korluq

www.sosik.az ödənişsiz istifadə üçün

E) Skatoma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh22

**846) Mieloqrafiyanın hansı növləri vardır?**

A) Qalxan, enən
B) Selektiv, superselektiv
C) Karotid, vertebral
D) Sadə, kontrastlı
E) KT, MRT

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh30

**847) Bel punksiyası hansı səviyyələrdə aparılır?**

A) Bel nahiyəsinin istənilən səviyyəsində
B) L1 - L2, L2 - L3
C) L3 - L4, L4 - L5
D) Th11 - Th12, Th12 - L1
E) L5 - S1, S1 - S2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh37

**848) Kvekenştdent sınağı hansı damarların sıxılması ilə icra edilir?**

A) Üz venası
B) Vertebral arteriyalar
C) Xarici yuxu arteriyası
D) Vidaci venalar
E) Daxili yuxu arteriyası

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh38

**849) Sagital tikişdən 2 sm yana, tac tikişdən 2 sm önə təyin olunan nahiyə necə adlanır?**

A) Koxer nöqtəsi
B) Foramen maqnum
C) Təpə qabarı
D) Burdenko nöqtəsi
E) Dendi nöqtəsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh42

www.snsk.az ödənissiz istifadə üçün

**850) Arteriovenoz malformasiyalar aşağıda göstərilən hansı hissələrdən ibarətdir?**
**1. gətirici genişlənmiş arteriya**
**2. damar kələfi (arteriovenoz şunt)**
**3. aparıcı venalar**
**4. kapilyarlar**

A) 1, 3, 4
B) 2, 3
C) 2, 3, 4
D) 2, 4
E) 1, 2, 3

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh168

**851) Histoloji quruluşuna görə baş beyin şişləri hansı şişlərə təsnif edilir?**

A) Supratentorial, subtentorial
B) İntraserebral, ekstraserebral
C) Mielinli, mielinsiz
D) Birincili, metastatik
E) Neyroektodermal, mezenximal

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh53

**852) Öz ölçüsü kiçik olub, ətrafında böyük kista əmələ gətirən şiş necə adlanır?**

A) Sarkoma
B) Papilloma
C) Pinealoma
D) Astrositoma
E) Angioretikuloma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh62

**853) Hansı şişin yerləşdiyi zonada sümükdə çox zaman hiperostoz, az hallarda isə sümüyün dağılması müşahidə edilir?**

A) Angioretikuloma
B) Astrositoma
C) Qlioblastoma
D) Araxnoidendotelioma
E) Medulloblastoma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh68

www.snsk.az ödənişsiz istifadə üçün

**854) Hansı payın şişləri zamanı mürəkkəb reflekslər, hərəki afaziya, aqrafiya kimi məhəlli əlamətlər rast gəlinir?**

A) Alın payının şişləri
B) Yan mədəciklərin şişləri
C) Gicgah payının şişləri
D) Təpə payının şişləri
E) Ənsə payının şişləri

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh68

**855) Türk yəhəri nahiyəsinin şişlərinə hansı şişlər aiddir?**
**1. hipofizin şişləri**
**2. kraniofaringioma**
**3. türk yəhəri qabarının şişləri**
**4. yan mədəciyin şişi**

A) 1, 3
B) 2, 3
C) 2, 4
D) 1, 2, 3
E) 1, 2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh75

**856) Körpü beyincik bucağının şişlərinə aşağıdakılardan hansılar aiddir?**
**1. VIII sinirin nevrinoması**
**2. Meningioma**
**3. Xolesteatoma**
**4. Astrositoma**

A) 1, 2, 3
B) 1, 2, 4
C) 2, 3, 4
D) 2, 3
E) 1, 3, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh79

**857) Hansı sindrom zamanı onurğa beyni həcmli proseslərində, proses olan tərəfdə hərəki, əks tərəfdə hissi pozğunluqlar müşahidə edilir?**

A) Konovalov simptomu
B) Broun-Sekar sindromu
C) Horner sindromu
D) Qum saatı sindromu

www.snsk.az ödənişsiz istifadə üçün

E) Pussep sindromu

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh98

**858) Fəqərə sütununun metastatik şişini göstərin.**

A) Mieloma
B) Xondroma
C) Hemangioma
D) Hipernefroma
E) Osteoma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh103

**859) İntradural - ekstramedulyar həcmli proses zamanı sizin cərrahi taktikanız:**

A) Laminoektomiya, şişin xaric edilməsi
B) Hemilaminektomiya, şişin xaric edilməsi,
C) Dekompressiv trepanasiya
D) Sümük plastik trepanasiya şişin xaric edilməsi
E) Transpedikulyar stabilizasiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004

**860) Reklinqhauz xəstəliyi zamanı aşağıdakılardan hansı müşahidə edilir?**

A) Dəridə xarakterik ləkələrin (südlü kofe rəngli) olması
B) Dişlərin saralması
C) Ətrafların böyüməsi
D) Dırnaqlarda dəliklərin olması
E) Saçların tökülməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh105

**861) Kəllədaxili hematomaları göstərin:**
**1. epidural**
**2. subdural**
**3. beyindaxili**
**4. subaraxnoidal**
**5. mədəcikdaxili**

A) 1, 2, 4
B) 1, 2, 3
C) 1, 3, 5
D) 2, 3, 4
E) 2, 3, 4, 5

www.snsk.az ödənissiz istifadə üçün

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh115

**862) KBT(Kəllə-beyin-travması) almış bir xəstə səs qıcığına qarşı gözlərini açır, verilən suallara çaşqın cavab verir və yuxarı ətrafı ilə ağrını lokalizə edir. Qlazqo koma şkalası ilə xəstənin vəziyyətini dəyərləndirin:**

A) 12
B) 13
C) 10
D) 14
E) 11

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh123

**863) Xiazmadan sonra beyin qabığına - görmə mərkəzinə qədər olan sahədə görmə yolunun patoloji prosesi, görmə sahəsində hansı şəkildə pozğunluq əmələ gətirir?**

A) Binazal hemianopsiya
B) Amovroz
C) Homonim hemianopsiya
D) Bitemporal hemianopsiya
E) Hetronim hemianopsiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh23

**864) Kəllədaxili təzyiqin artmasını göstərən kranioqrafik əlamətlərə aşağıdakılardan hansı aid deyil?**

A) Damar şırımlarının zəifləməsi
B) Barmaq basıqlarının dərinlənməsi
C) Kəllə tağı sümüklərinin nazikləşməsi
D) Damar şırımlarının güclənməsi
E) Uşaqlarda tikişlərin ayrılması

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh26

**865) Hipofizin şişi üçün kranioqrafik spesifik lokal əlamətlərinə aşağıdakılardan hansı aid deyil?**

A) Türk yəhəri girəcəyinin genişlənməsi
B) Türk yəhərinin birincili dağılması
C) Türk yəhərinin balonabənzər böyüməsi
D) Barmaq basıqlarının dərinləşməsi
E) Əsas cibin sıxılması

www.sisk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh27

**866) Fəqərə sütununda osteoxondrozun spondiloqrafik əlamətlərini göstərin.**
**1. fəqərəarası sahənin daralması**
**2. arxa - yan osteofitlər**
**3. fəqərələrin yerdəyişməsi (spondilolistez)**
**4. fəqərə cisimlərinin sınıqları**

A) 1, 2, 3
B) 2, 4
C) 1, 3, 4
D) 2, 3
E) 1, 2, 3, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh27

**867) Karotid angioqrafiya, hansı arteriyaya kontrast maddənin yeridilərək R - şəkillərin çəkilməsinə əsaslanır?**

A) Daxili yuxu arteriyası
B) Orta beyin arteriyası
C) Ön birləşdirici arteriya
D) Vidaci venaya
E) Ümumi yuxu arteriyası

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh47

**868) Hipertenziya sindromu zamanı aparılan əməliyyatları sadalayın.**
**1. həcmli prosesin xaric edilməsi**
**2. dekompressiv trepanasiya**
**3. şuntlayıcı palliativ əməliyyatlar**
**4. dekompressiv laminoektomiya**

A) 1. 3. 4
B) 1. 2. 3. 4
C) 1. 2. 3
D) 2. 4
E) 2. 3. 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh49

**869) Beyin toxumasına olan münasibətinə görə şişlər hansı formalara bölünür?**

A) Supratentorial, subtentorial şişlərə
B) Neyroektodermal, mezenximal şişlərə

www.sndk.az ödənişsiz istifadə üçün

C) İntraserebral, ekstraserebral, hipofizar nahiyənin şişlərinə
D) İntraserebral, neyroektodermal
E) İntraserebral, mezenximal şişlərə

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**870) Beyindaxili şişlər üçün aşağıdakılardan hansı düzgündür?**

A) Həmişə subtotal xaric edilir
B) Həmişə bədxassəli olur
C) Residiv vermir
D) Bədxassəli olmur
E) Tam radikal çıxarılmasına baxmayaraq təkrari inkişaf edir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**871) Ekstraserebral şişlər üçün yazılanlardan hansı düzgündür?**

A) Total xaric etmək mümkün deyil
B) Çıxarıldıqdan sonar şüa müalicəsi mütləqdir
C) Bioloji xüsusiyyətlərinə görə bədxassəli olur
D) Bioloji xüsusiyyətlərinə görə xoşxassəli olur
E) Həmişə residiv verir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**872) Ekstraserebral şişlər üçün yazılanlardan hansı düzgündür?**

A) Total xaric etmək mümkün deyil
B) Radikal çıxarıldıqdan sonar əsasən təkrari əmələ gəlmir
C) Çıxarıldıqdan sonar şüa müalicəsi mütləqdir
D) Bioloji xüsusiyyətlərinə görə bədxassəli olur
E) Həmişə residiv verir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**873) Hipofizar nahiyənin şişlərini göstərin.**

A) Kraniofaringioma, medulloblastoma
B) Hipofizin adenoması, papilloma
C) Hipofizin adenoması, kraniofaringioma
D) Pinealoma, papilloma
E) Oliqodendroqlioma, qlioblastoma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

www.sinif.az ödənişsiz istifadə üçün

**874) Metastatik şişlər üçün xarakterik KT mənzərə aşağıdakılardan hansıdır?**

A) Şişin içərisində kiçik kistalar müşahidə edilir
B) Böyük ölçülü şiş, ətrafında kiçik kista
C) Böyük ölçülü şiş, kiçik ödem sahəsi
D) Kiçik ölçülü şiş, ətrafında böyük ödem sahəsi
E) Kiçik ölçülü şiş, ətrafında böyük kista

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004

**875) Neyroektodermal şişləri göstərin.**
**1. oliqodendroqlioma**
**2. medulloblastoma**
**3. pinealoma**
**4. nevrinoma**
**5. araxnoidendotelioma**
**6. angioretikuloma**

A) 1, 3, 5, 6
B) 1, 2, 3, 4
C) 2, 3, 4, 5, 6
D) 3, 4, 5, 6
E) 1, 3, 4, 5

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh54

**876) Astrositoma üçün sadalananlardan hansı səhvdir?**

A) Adətən beyin toxumasından az fərqlənir
B) Bütün yaşlarda rast gəlinir
C) Neyroektodermal şişlərin böyük hissəsini təşkil edir
D) Astrositlərdən əmələ gəlir
E) Sinirin qişasından əmələ gəlir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh55

**877) Oliqodendroqlioma üçün sadalananlardan hansı səhvdir?**

A) İçərisində kiçik kistalar olur
B) Mədəciklərin ependim hüceyrələrindən inkişaf edir
C) Çox vaxt mədəciklərin divarına doğru inkişaf edir və ora daxil olur
D) Aydın sərhədləri olur
E) Bu şişlər üçün əhəngləşmə xarakterikdir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh56

www.snsl.az ödənişsiz istifadə üçün

**878) Qlioblastoma üçün sadalananlardan hansı səhvdir?**

A) Spongiblaslardan inkişaf edir
B) Sərhədləri aydın olmur, sürətli inkişaf edir
C) Yarımkürə içərisində inkişaf edir, kistalı olur
D) Damarlarla zəif təchiz olunub, uzun müddət inkişaf edir
E) Çoxlu damarları olduğundan şişə tez - tez qansızma olur

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh57

**879) Aşağıdakılardan hansı cavab medulloblastoma üçün düzgündür?**

A) Uşaqlarda rast gəlinmir
B) Metastaz vermir
C) Xoşxassəlidir
D) Şiş çıxarıldıqdan sonra uzun müddətə əmələ gəlir
E) Neyroektodermal şişlərə aiddir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh57

**880) Papilloma üçün sadalananlardan hansı səhvdir?**

A) Dairəvi şəkilli olub, nazik kapsulası olur
B) Nisbətən bərk konsistensiyalıdır, bəzən əhəngləşir
C) Əzgiləbənzər vəzin toxumasından əmələ gəlir
D) Ən çox uşaqlarda rast gəlinir
E) Damar kələfindən inkişaf edir, mədəciklərdə yerləşir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh58

**881) Pinealoma haqqında sadalananlardan hansı düzdür?**

A) əzgiləbənzər vəzin toxumasından əmələ gəlir
B) uşaqlarda heç vaxt rast gəlinmir
C) ən çox VIII sinirin qişasından inkişaf edir
D) residiv vermir
E) bədxassəli forması yoxdur

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh58

**882) Nevrinoma haqqında aşağıdakılardan hansı səhvdir?**

A) Sürətlə inkişaf edir
B) Böyük yaşlarda rast gəlinmir
C) Sinirin qişasından əmələ gəlir
D) ən çox VIII sinirin qişasından inkişaf edir

www.snsk.az ödənişsiz istifadə üçün

E) yavaş inkişaf edir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh59

**883) Beyindaxili şişlərin residivləri haqqında aşağıdakılardan hansı səhvdir?**

A) daha böyük sahəni tutur və dərin nahiyələrə yayılırlar
B) əsasən birincili şiş olan nahiyədə əmələ gəlirlər
C) qısa müddətə inkişaf edirlər
D) xoşxassəli qlial şişlər residiv zamanı bəd xassəliyə çevrilə bilər
E) uzun müddətə inkişaf edirlər

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh60

**884) Meningioma üçün aşağıdakılardan hansı səhvdir?**

A) Uşaqlarda tez - tez rast gəlinir
B) Xəstəliyin əlamətləri əsasən şiş böyük ölçüyə çatdıqda əmələ gəlir
C) Əsasən hörümcək torunabənzər qişadan inkişaf edir
D) Sərt qişa arteriyalarından və beyin damarlarından qidalanır
E) Yerləşdiyi zonada sümükdə çox zamanhiperostoz müşahidə edilir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh61

**885) Angioretikuloma üçün aşağıdakılardan hansı səhvdir?**

A) Şiş adətən kistanın içərisində yerləşir
B) Tərkibində çoxlu zülal olan kistalar əmələ gətirir
C) Bəd xassəlidir
D) Beyində olan damar mənşəli birləşdirici toxumalardan əmələ gəlir
E) Şiş kiçik ölçülü, kistası böyük ölçülü olur

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh62

**886) Sarkoma haqqında aşağıdakılardan hansı səhvdir?**

A) Beyin toxumasından kəskin fərqlənir
B) Total çıxarılması mümkün deyil
C) Bir neçə variantda - meninqosarkoma, angioretikulosarkoma, fibrosarkoma və s. rast gəlir
D) Beyin toxuması və sümükdə dağılma törədir
E) İçərisində kiçik kistalar, nekroz və qansızma zonaları müşahidə edilir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh63

www.snsk.az ödənissiz istifadə üçün

**887) Hipertenziya sindromunun əsas əlamətlərininə aşağıdakılardan hansı aid deyil?**
**1. baş ağrısı**
**2. qusma**
**3. başgicəllənmə**
**4. qıcolma tutmaları**
**5. göz dibində durğunluq**
**6. aşağı vəya yuxarı paraplegiya**

A) 1, 2, 3,
B) yalnız 6
C) 1, 3, 5,
D) 2, 3, 4,
E) 3, 6

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh64

**888) Epileptik tutmalar ən çox hansı nahiyənin şişi üçün xarakterikdir?**

A) Beyin kötüyünün şişi
B) IV mədəciyin şişi
C) Təpə nahiyəsinin
D) Gicgah payının
E) Beyinciyin

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh66

**889) Göz dibində durğunluq və görmə sinirinin nevriti zamanı görmənin zəifləməsi, bu iki hala bir birindən anamnestik olaraq necə fərqlənir?**

A) Durğunluq zamanı göz qarşısında dumanın, torun olması, nevritdə fotopsiyaların olması xarakterikdir
B) Durğunluq zamanı zəifləmə gec, nevrit zamanı tez əmələ gəlir
C) Durğunluq zamanı zəifləmə tez, nevritdə isə tez baş verir
D) Bir birindən fərqlənmir
E) Durğunluq adətən travma neticəsində müşahidə olunur, nevrit infeksion xəstəlikdən sonra

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh66

**890) Baş beynin şişləri zamanı likvorda olan dəyişikliklərə aşağıdakılardan hansı aid deyil?**

A) Likvorda zülalın olması
B) Likvorda hüceyrələrin miqdarı artır
C) Rəngi ksantoxrom olur

www.sinif.az ödənişsiz istifadə üçün

D) Likvorda qanın olması
E) Bəzi hallarda likvor sınaq borusunda laxtalanır

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh67

**891) Təpə payının şişləri zamanı aşağıda sadalanan məhəlli əlamətlərdən adətən hansına rast gəlinmir?**

A) Hiposmiya və ya anosmiya
B) Aleksiya
C) Astereoqnoz
D) Apraksiya
E) Ataksiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh69

**892) Alın payının şişləri zamanı rast gəlinən yerli əlamətlərə aşağıdakılardan hansı aid deyil?**

A) hiposmiya və ya anosmiya
B) ovuc - çənəaltı və tutma reflekslərinin mənfi olması
C) emosional pozğunluqlar
D) astaziya, abaziya
E) ataksiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh68

**893) Hipomimiya, maskaya bənzər sifət, qeyri iradi gülüş və ağlama, yuxarıya baxışın parezi ən çox hansı nahiyənin şişləri zamanı müşahidə edilir?**

A) Gicgah payının
B) Yan mədəciyin şişləri
C) Təpə payının
D) Alın payının
E) Talamusun

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh71

**894) III mədəciyin şişlərininə aşağıdakılardan hansılar aid deyil?**
**1. Astrositoma**
**2. Medulloblastoma**
**3. Ependimom**
**4. Kolloid kista**
**5. Xolesteatoma**
**6. Xorioidpapilloma**

www.smsk.az ödənişsiz istifadə üçün

A) 2, 3, 5
B) 2, 3, 4
C) 3, 4 5
D) 3, 4
E) 1, 2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh72

**895) Hansı nahiyənin şişi vaxtından əvvəl cinsi inkişafa səbəb olur?**

A) alın payının şişləri
B) ənsə payının şişləri
C) hipofizin şişi
D) əzgiləbənzər vəzin şişi
E) təpə payının

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh73

**896) Hipofizin adenoması zamanı cərrahi müdaxiləyə göstəriş hansıdır?**

A) Giqantizm və ya akromeqaliyanın olması
B) Vaxtından əvvəl cinsi yetişkənliyin müşahidə edilməsi
C) Adenomanın supraselyar inkişafı, xiazmal sindromun əmələ gəlməsi
D) Yalnız rentgenoloji və endokrinoloji əlamətlər
E) Qadınlarda aybaşı tsiklinin pozulması, kişilərdə cinsi vəzilərin və üzvlərin zəif inkişaf etməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh76

**897) Kəllə sümüklərinin həcmli törəmələri hansılardır?**
**1. osteoma**
**2. eozinofil qranuloma**
**3. epidermoid və dermoidlər**
**4. pinealoma**

A) 1, 2, 4
B) 1, 2, 3, 4
C) 1, 3, 4
D) 2, 3, 4
E) 1, 2, 3

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh94

**898) İntradural - ekstramedulyar şişləri göstərin.**
**1. meningioma**
**2. nevrinoma**

www.snsk.az ödənişsiz istifadə üçün

**3. oliqodendroqlioma**
**4. medulloblastoma**

A) 1, 2, 4
B) 1, 2, 3
C) 1, 3, 4
D) 2, 3, 4
E) 1, 2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh96

**899) İntramedulyar şişlər zamanı hansı yanaşma daha düzgündür?**

A) Hemilaminektomiya şişin xaric edilməsi
B) Dekompressiv laminoektomiya, sərt qişanın açıq saxlanılması
C) Dekompressiv hemilaminektomiya
D) Korporektomiya, ön korporodez
E) Laminoektomiya, şişin xaric edilməsi, vertebroplastika

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh103

**900) Şişin bir və ya iki fəqərəarası dəliyə daxil olaraq şiddətli ağrı törətdiyi hallarda hansı cərrahi yanaşma məqsədəuyğundur?**

A) İntradural arxa kökcüyün kəsilməsi (radikulotomiya)
B) Dekompressiv laminoektomiya, sərt qişanın açıq saxlanılması
C) Dekompressiv hemilaminektomiya
D) Korporektomiya, ön korporodez
E) Laminoektomiya, şişin xaric edilməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh105

**901) Hansı hallarda kəllə beyin travması açıq hesab edilir?**
**1. aponevroz və sümüküstlüyü zədələndikdə**
**2. kəllə əsası sümüklərinin sınıqlarında**
**3. dərialtı hematoma yığıldıqda**
**4. kəllə sümüklərini xətti sınığı olduqda**

A) 2, 4
B) 1, 2
C) 1, 3, 4
D) 1, 2, 3
E) 1, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh107

www.snsk.az ödənişsiz istifadə üçün

**902) Qapalı kəllə - beyin travması zamanı Qureviç - Mann simptomu hansı halda daha tez - tez rast gəlinir?**

A) Beynin sıxılmasında
B) Baş beynin ağır dərəcəli əzilməsində
C) Baş beynin orta dərəcəli əzilməsində
D) Baş beynin silkələnməsində
E) Qəlpəli sınıqlar zamanı

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh108

**903) Xəstə avtoqəza nəticəsində xəsarət almışdır. Qısa müddətli huşunu itirmişdir. 2 - 3 gün ərzində ümumi beyin əlamətləri davam edib, ətraflarda yüngül hemiparez, koordinasiya pozğunluqları, vestibulyar dəyişikliklər müşahidə edilib. Lokal dəri örtüklərinin tamlığı pozulmayıb. Kranioqramlarda xətti sınıqlar təyin edilib. Likvorda qan aşkar edilib. Sizin müəyyən edəcəyiniz diaqnoz hansıdır?**

A) Qapalı kəllə - beyin travması. Baş beynin ağır dərəcəli əzilməsi
B) Qapalı kəllə - beyin travması. Baş beynin silkələnməsi
C) Qapalı kəllə - beyin travması. Baş beynin orta dərəcəli əzilməsi
D) Qapalı kəllə - beyin travması. Baş beynin yüngül dərəcəli əzilməsi
E) Açıq kəllə - beyin travması. Baş beynin orta dərəcəli əzilməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh108

**904) Xəstə təqribən 1 ay əvvəl avtoqəza nəticəsində xəsarət alıb. Huşunu qısamüddətli itirib. Tədricən xəstənin vəziyyətində yaxşılaşma müşahidə olunub. Son 3 gündə vəziyyəti kəskin pisləşib. Huşunun dərinləşməsi, ümumi beyin əlamətləri, hemiparez müşahidə olunub. İlkin ehtimal edəcəyiniz patologiya hansıdır?**

A) Beyin absesi
B) Beyindaxili hematoma
C) Xroniki subdural hemotoma
D) Epidural hematoma
E) Subaraxnoidal qansızma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh114

**905) Psixomotor oyanıqlıq, hormetonik qıcolmalar, avtomatik hərəkətlər, ikitərəfli patoloji reflekslər, hipertermiya, tənəffüsün pozulması əlamətləri aşağıda sadalanan hansı patoloji proses zamanı müşahidə edilir?**

A) Beyin absesi
B) Subdural hematoma

www.snsk.az ödənişsiz istifadə üçün

C) Subaraxnoidal qansızma
D) Mədəcikdaxili qanaxma
E) Epidural hematoma

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh117

**906) Xroniki subdural hematoma zamanı müalicə taktikası necə olmalıdır?**

A) Cərrahi; rezeksion trepanasiya, hematomanin xaric edilməsi
B) Cərrahi; S. P. T hematomanın xaric edilməsi
C) Xəstənin 2 ay müddətində qoruyucu və ya yarımyataq rejimində saxlanılması
D) Cərrahi; frez dəliklərindən hematomanın xaric edilməsi
E) Konservativ; desensibilizəedici, dehidrotasiyaedici, antibiotiklərin təyini

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh118

**907) Beyindaxili hematomanın çıxarılma etaplarına aşağıdakılardan hansı daxil deyil?**

A) S. P. T və ya dekompressiv trepanasiyanın icra edilməsi
B) Hematoma boşluğuna rezin drenajın qoyulması
C) Beyin qabığının kəsilərək, hematoma boşluğunun açılması, qan laxtalarının çıxarılması
D) Hemostaz
E) Hematoma boşluğunun punksiya edilərək duru qan hissəsinin sorulması

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh118

**908) Mədəcikdaxili hematomalar zamanı müalicə taktikası necə olmalıdır?**

A) Cərrahi; rezeksion trepanasiya, hematomanin xaric edilməsi
B) Cərrahi, Hematoma boşluğunun punksiya edilərək duru qan hissəsinin sorulması
C) Cərrahi; frez dəliklərindən hematomanın xaric edilməsi
D) Konservativ; hemostatiklərin, neyroleptiklərin, antibiotiklərin təyini
E) Cərrahi; S. P. T hematomanın xaric edilməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh119

**909) Kəllə beyin travmalı xəstələrin müayinəsi zamanı hansı göstəricilərin qiymətləndirilməsi vacib deyil?**

A) hərəki reaksiyalar
B) bəbəklərin vəziyyəti və reaksiyası
C) çanaq orqanları funksiyasının vəziyyəti
D) huşun vəziyyəti
E) həyati funksiyalar (nəbz, tənəffüs, qan təzyiqi)

www.snsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh120

**910) Hansı nahiyənin zədələnməsi üçün tənəffüs ritminin pozulması xarakterikdir?**

A) Orta beyin
B) Uzunsov beyin
C) Beyincik
D) Ara beyin
E) Əzgiləbənzər vəzin

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh120

**911) Hansı nahiyənin zədələnməsi zamanı tənəffüsün tezləşməsi müşahidə edlir?**

A) Orta beyin körpü
B) Ara beyin
C) Beyincik
D) Əzgiləbənzər vəzin
E) Uzunsov beyin

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh120

**912) Kəllə- beyin travmasının ilk anından hansı əlamətin əmələ gəlməsi, beyin kötüyünün əzilməsinə dəlalət edir?**

A) Hipertermiya
B) A / T düşməsi
C) Nəbzin seyrəlməsi
D) Tənəffüsün tezləşməsi
E) Nəbzin tezləşməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh121

**913) Xəstə daim yatır, yalnız ağrı qıcığından sonar gözlərini açır, lakin sadə əmrləri yerinə yetirir. Hərəkətləri dəqiq olsa da tam məqsədyönlü deyil. Xəstənin huşunun hansı səviyyədə pozulmasını təyin edin.**

A) Koma II
B) Huşun dərin karlaşması - sopor
C) Koma I
D) Huşun yüngül karlaşması
E) Huşu aydındır

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh121

www.snsk.az ödənissiz istifadə üçün

**914) Xəstə yuxuludur, ətraf mühitə qarşı reaksiyaları zəifləyib, nitqi çətinləşib, hərəkətləri isə dəqiq və məqsədyönlüdür. Xəstənin huşunun hansı səviyyədə pozulmasını təyin edin.**

A) Huşun dərin karlaşması
B) Huşun yüngül karlaşması
C) Huşu aydındır
D) Koma I
E) Koma II

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh121

**915) Hər iki bəbəyin genişlənməsi və işığa reaksiyanın olmaması hansı nahiyənin zədələnməsini göstərir?**

A) Beyin kötüyünün
B) Alın payının
C) Ara beynin
D) Beyinciyin
E) Ənsə payının

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004

**916) Bəbəklərin hər iki tərəfdən patoloji daralması hansı nahiyənin zədələnməsi zamanı müşahidə edilir?**

A) Ara beynin
B) Beyin kötüyünün
C) Ənsə payının
D) Beyinciyin
E) Alın payının

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh122

**917) Ağrı qıcığına qarşı qeyri - adekvat hərəki reaksiyaların formalarını sadalayın.**
**1. dekortikasiyalı gərginlik**
**2. tipik deserebrasiya gərginliyi**
**3. qeyri - tipik deserebrasiyalı gərginlik**
**4. hipotoniya**

A) 1, 2, 3, 4
B) 1, 4
C) 2, 3
D) 1, 2, 4

www.snsk.az ödənissiz istifadə üçün

E) 1, 2, 3

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh122

**918) Xəstədə aşağı və yuxarı ətraflarda spontan və ya ağrı qıcığına qarşı açıcı hərəkətlər, barmaqların yumruq kimi bükülməsi, və opistotonus müşahidə edilir. Bu hal ağrı qıcığına qarşı qeyri - adekvat hərəki reaksiyaların hansı formasına aiddir?**

A) Hipotoniya
B) Adekvat hərəki reaksiyalara aiddir
C) Dekortikasiyalı gərginlik
D) Qeyri - tipik deserebrasiya gərginliyi
E) Tipik deserebrasiya gərginliyi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh122

**919) Xəstə ağrı qıcığına qarşı gözlərini açır, suallara çaşqın cavab verir, yuxarı ətrafı ilə ağrı nahiyəsini göstərir. Xəstənin vəziyyətini koma şkalası üzrə qiymətləndirin.**

A) 13
B) 11
C) 15
D) 8
E) 20

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh123

**920) Xəstə gözlərini spontan açır, suallara orientasiyalı cavab verir, hərəki tapşırıqları yerinə yetirir. Xəstənin vəziyyətini koma şkalası üzrə qiymətləndirin.**

A) 6
B) 13
C) 15
D) 11
E) 8

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh123

**921) Xəstə gözlərini ağrı qıcığına qarşı açır, suallara cavab olaraq qeyri - aydın səslər çıxarır, ekstensor tipli hərəki reaksiya müşahidə olunur. Xəstənin vəziyyətini koma şkalası üzrə qiymətləndirin.**

A) 8

www.snsk.az ödənişsiz istifadə üçün

B) 10
C) 9
D) 7
E) 6

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh123

**922) Apallik sindrom hansı nahiyənin zədələnməsi ilə əlaqədar olur?**

A) Orta beyin
B) Beyincik
C) Ara beyin
D) Alın payının
E) Beyin kötüyü, beyin qabığı

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh124

**923) Bel punksiyasının aparılma məqsədləri haqqında aşağıdakı hansı fikir doğru deyil?**

A) Mieloqrafiya və pnevmoensefaloqrafiyanı icra etmək
B) Müalicəvi dərmanları subaraxnoidal boşluğa yeritmək
C) Likvor təzyiqini ölçmək
D) Subaraxnoidal boşluğun keçiriciliyini təyin etmək
E) Kəllədaxili təzyiqi artırmaq

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh37

**924) Likvorun tərkibində zülal və sitoz iltihabi hüceyrələrin norma miqdarını göstərin:**

A) Zülal 0, 33%, sitoz 7 - yə qədər
B) Zülal 2 %, sitoz - 20
C) Zülal 50 %, sitoz 7 – yə qədər
D) Zülal 10 %, sitoz 1000
E) Zülal 10 %, sitoz 50 - 70

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh37

**925) Kvekenştdent sınağının aparılma qaydası aşağıdakılardan hansıdır?**

A) Dendi nöqtəsində frez dəliyi qoyularaq, arxa buynuz punksiya edilir, kontrast maddə yeridilərək rentgen şəkil çəkilir
B) Bel punksiyasından sonra, boyun nahiyəsində hər iki tərəfdən vidaci venalar sıxılır
C) Bel punksiyasından sonra, göbək nahiyəsində qarının ön divarı göbək nahiyəsinə sıxılır

www.sisk.az ödənişsiz istifadə üçün

D) Koxer nöqtəsində frez dəliyi qoyularaq mədəcik punksiya edilir
E) Xarici ənsə qabarcığı və II boyun fəqərəsinin arxa çıxıntısı təyin edilərək, 45 ° bucaq altında aşağıya doğru punksiya edilir

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh38

**926) Stukeya sınağının aparılma qaydasını göstərin:**

A) Koxer nöqtəsində frez dəliyi qoyularaq mədəcik punksiya edilir
B) Dendi nöqtəsində frez dəliyi qoyularaq, arxa buynuz punksiya edilir, kontrast maddə yeridilərək rentgen şəkil çəkilir
C) Xarici ənsə qabarcığı və II boyun fəqərəsinin arxa çıxıntısı təyin edilərək, 45 dərəcə bucaq altında aşağıya doğru punksiya edilir
D) Bel punksiyasından sonra, boyun nahiyəsində hər iki tərəfdən vidaci venalar sıxılır
E) Bel punksiyasından sonra, göbək nahiyəsində qarının ön divarı fəqərə sütununa sıxılır

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh39

**927) Suboksipital punksiya zamanı başverə biləcək fəsadlar hansılardır?**

A) Ön beyin arteriyasının zədələnməsi
B) Daxili yuxu arteriyasını zədələnməsi
C) Vidaci venanın zədələnməsi
D) Araxa beyin arteriyasının, uzunsov beyinin zədələnməsi
E) Qida borusunun zədələnməsi

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh41

**928) Kəllədaxili təzyiqin həcmi hansı faktorların bir - birinə olan münasibətindən asılıdır?**
**1. arterial və venoz təzyiqin həcmi**
**2. beyin toxumasında toxumadaxili təzyiq**
**3. beyin - onurğa beyin mayesinin təzyiqi**

A) Yalnız 2
B) 2, 3
C) 1, 2
D) 1, 3
E) 1, 2, 3

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh44

**929) Normada orta törəmələrin yerdəyişməsinin variasiyaları hansı ölçülər həddində olur?**

www.smk.az ödənişsiz istifadə üçün

A) 8 - 10 mm
B) 5 - 8 mm
C) 10 - 12 mm
D) 1, 0 – 2, 5 mm
E) 7 - 8 mm

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh47

**930) Aşağıdakılardan hansı müayinə üsulu, hipofizin adenoması zamanı cərrahi müdaxiləyə göstərişi müəyyənləşdirir?**

A) Neyrooftalmoloji
B) EEQ
C) Otonevroloji
D) Neyrorentgenoloji
E) Likvoroji

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh10

**931) Hansı halda mədəciklərin punksiya edilməsi məqsədəuyğundur?**

A) Sağ alın sümüyünün basılmış sınığında
B) Xroniki subdural hematoma zamanı
C) Falksın ön 1 / 3 meningioması zamanı
D) Arxa kəllə çuxurunun həcmli prosesinə şübhə olduqda
E) Subaraxnoidal qansızma zamanı

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh10

**932) Aşağıdakılardan hansıları cərrahı əməliyyata mütləq göstərişdir?**
**1. Likvor yollarının tutulması ilə gedən patoloji proseslər**
**2. Onurğa beyninin sıxılma sindromları**
**3. Kəllə sümüyünün deffekti**
**4. Fəqərəarası disk yırtığı**

A) 1, 4
B) 1, 2
C) 1, 3, 4
D) 2, 3
E) 1, 2, 3

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh16

**933) Əsas xəstəliyi cərrahi yolla müalicə etmək mümkün olmadıqda, xəstənin həyatını xilas etmək üçün aparılan əməliyyatlar necə adlanır?**

www.smsk.az ödənişsiz istifadə üçün

A) Rekonstruktiv əməliyyatlar
B) Radikal əməliyyatlar
C) Preventiv əməliyyatlar
D) Stereotaksik əməliyyatlar
E) Palliativ əməliyyatlar

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh19

**934) Görmə sahəsində sektorlu və ya "adacıqlı" korluq (skatoma) nə zaman baş verir?**

A) Görmə liflərinin ancaq bir hissəsinin zədələnməsində
B) Xiazmanın çarpazlaşmayan liflərinin zədələnməsi zamanı
C) Görmə sinirinin görmə çarpazına qədər zədələnməsi zamanı
D) Görmə çarpazının (xiazmanın) tam dağılması zamanı
E) Görmə sinirinin nevriti zamanı

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh23

**935) Xiazmanın çarpazlaşmayan liflərinin zədələnməsi zamanı (daxili yuxu arteriyasının anevrizmasında) görmə sahəsində hansı şəkildə pozulmanı müşahidə etmək olar?**

A) Skatoma
B) İkitərəfli korluq
C) Həmən gözdə amovroz
D) Binazal hemianopsiya
E) Bitemporal hemianopsiya

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh23

**936) Fəqərə sütununun xoşxassəli şişləri hansılardır?**
**1. angioma**
**2. osteoblastoklastoma**
**3. osteosarkoma**
**4. xondroma**
**5. xondrosarkoma**

A) 1, 3, 5
B) 1, 4
C) 2, 3, 4
D) 3, 4
E) 1, 2, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh98

www.snsk.az ödənişsiz istifadə üçün

**937) Hansı nahiyənin şişi zamanı yuxarı süst, aşağı spastik paraparez və yaxud paraplegiya, Horner sindromu, naqil tipli hipesteziya və ya anesteziya müşahidə edilir?**

A) C5 - Th1
B) S1 - S2
C) C1 - C4
D) Th5 - Th8
E) Th2 - Th12

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh99

**938) Hansı nahiyənin şişləri zamanı qabırğaarası sinirlər boyu ağrılar, aşağı mərkəzi paraparez, hissiyyatın və çanaq üzvləri funksiyasının pozğunluğu müşahidə edilir?**

A) C1 - C4
B) C5 - Th1
C) S1 - S2
D) L1 - L5
E) Th2 - Th12

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh100

**939) Hansı seqmentlər səviyyəsində şişlər zamanı aşağı ətraflarda süst paraparez, naqil tipli hissiyyatın pozulması müşahidə edilir?**

A) Th2 - Th5
B) S1 - S2
C) Th8 - Th12
D) Th5 - Th8
E) L1 - L2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh100

**940) Hansı seqmentlər nahiyəsində patoloji proses zamanı sidik, nəcis ifrazının periferik tipli pozğunluğu, cinsi zəiflik, hissiyyatın aralıq, sağrı və cinsi üzvlər nahiyəsində pozulması, hərəki pozğunluqların olmaması müşahidə edilir?**

A) Th8 - Th12
B) Th2 - Th5
C) S3 - S5
D) Th5 - Th8
E) S1 - S2

www.snsk.az ödənişsiz istifadə üçün

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh100

**941) Hansı nahiyənin şişləri zamanı oma nahiyəsində kəskin ağrılar, ağrıların anusa və aşağı ətraflara sirayət etməsi, ağrıların duran, gəzən zaman artması, kökcük tipli hərəki - hissi pozğunluqlar, sidiyi, nəcisi saxlaya bilməmək müşahidə edilir?**

A) Th5 - Th8
B) S1 - S2
C) Th8 - Th12
D) At quyruğunun şişləri zamanı
E) L1 - L2

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh100

**942) Körpü beyincik bucağının şişlərini göstərin:**
**1. VIII sinirin nevrinoması**
**2. meningioma**
**3. xolesteatoma**
**4. angioretikuloma**

A) 1, 2, 3
B) 1, 2, 4
C) 2, 3, 4
D) 1, 3, 4
E) 1, 4

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh70

**943) Beyin kötüyündə rast gəlinən şişləri göstərin.**
**1. Qlioma**
**2. Angioretikuloma**
**3. Sarkoma və metastatik şişlər**
**4. Meningioma**
**5. Nevrinoma**

A) 1, 2, 3
B) 1, 2, 4, 5
C) 2, 4, 5
D) 3, 4, 5
E) 1, 4, 5

Ədəbiyyat:R. S. Həsənov, S. A. Etibarlı. Neyrocərrahlıq, Bakı, 2004. səh80

**944) Uşaqlarda şişlərin yerləşməsinin əsas xüsusiyyəti hansıdır?**

www.smsk.az ödənişsiz istifadə üçün

A) Əsasən orta kəllə çuxurunda yerləşməsi
B) Əsasən ön kəllə çuxurunda yerləşməsi
